# Turan Festivalı davam edir



**Azərbaycanda ardıcıl baş tutan kitab sərgiləri ölkəmizdə böyük rəğbətlə qarşılanır. Bu tip sərgilər kitabsevərlərin sevincinə səbəb olur, bir növ kitab oxucularının sayının çoxalmasına şərait yaradır. Mütaliə əsrarəngiz qapıların açarı rolunu oynayır. Söhbət açmaq istədiyimiz festival həm bu baxımdan, həm də Türk dövlətlərini kitab ətrafında birləşdirmək baxımından önəmlidir.**

Bakıda yanvarın 11-dən start götürən "I Turan Kitab Festivalı" sərgisi "Çapar yayınları"nın təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, DOST Agentliyinin, Yunus Əmrə İnstitutunun Bakı mərkəzinin təşkilati dəstəyi ilə baş tutub. Festivalda ölkənin 40-a yaxın nəşriyyatı, 20-yə yaxın kitab mağazası iştirak edir.

Sərgidə kitab təqdimatları, imza və qiraət saatları, həmçinin mühazirələr səsləndirilir. Festivalda iştirak edən xarici qonaqlarla eksklüziv görüşlər, alimlərlə diskussiyalar kitabsevərlərin zamanlarının səmərəli keçirməsinə səbəb olur. Məktəblilərin, universitet tələbələrinin və hətta yaşlı nəslin sərgidə iştirakı xüsusi maraq oyadır.

Yunus Əmrə İnstitutunun Bakı nümayəndəliyinin rəhbəri Selçuk Karakılıç sərgini yüksək qiymətləndirərək bildirdi ki, bu sərgi sayəsində yazarlarımızla oxucularımız görüşəcəklər və eyni zamanda Türkiyə və Azərbaycan tarixi haqqında fikir mübadiləsi aparılacaq.

"Vicdanın labüd etdiyi savaş" kitabının müəllifi Anar Əsədli imza mərasimində bizə bildirdi ki, bu sərgilər davamlı keçirilməlidir: "Keçən il ölkəmizdə hardasa 20-yə yaxın sərgidə iştirak etdim. Sərgilərin müsbət cəhətləri çoxdur. Kitab oxumaq cəmiyyəti inkişaf etdirir. Arzu edirəm ki, bu sərgilər davamlı olsun".

Sərginin Turan adı altında keçirilməsi indiki geosiyasi atmosferdə xüsusi diqqət cəlb edir. Türk dövlətlərinin digər sahələrlə yanaşı, mədəniyyətdə də bir araya gəlməsi təqdirəlayiqdir. İstər-istəməz, bu ad Azərbaycan gəncini düşündürəcək, "Nədir Turan" – deyə sual edəcək".

Diqqətimizi çəkən məqamlardan biri də "Alatoran" nəşriyyatının rəhbəri Rasim Qaracanın kitabların satışının özünün həyata keçirməsi idi. Naşirlə söhbətləşdik, o, sərgini yüksək qiymətləndirdi: "Sərgiyə maraq var, gələnlər çoxdur. Oxucularla, yazarlarla, nəşriyyatlarla – kitabla əlaqəli bütün şəxslərlə bir arada olmaq imkanımız olur. Bu sərginin, Turanın gücüdür. "Alatoran" stendimizdə öz nəşr etdiyimiz kitabları sərgiləyirik".

Festivalda "Atatürk monoqrafiyası", "Düşmən hər yerdə" kimi kitablar, Freyd, Nitşe kimi müəlliflərin əsərləri daha çox satılır.

Təhsil sisteminin, mədəniyyət idarələrinin, nəşriyyatların kitabaqayıdış prosesində yaxından iştirakı da bizi fərəhləndirdi.

Könüllülərdən ibarət bir qrup şəxsin SMA Tip 1 xəstəliyindən əziyyət çəkən Umud üçün kitab satışı vasitəsilə ianələr toplayırdı. Könüllü Şahnaz Tağıyeva 8 aylıq körpə övladı ilə birgə xeyiriyyə işində yaxından iştirak edən könüllülərdəndir. O, dedi: "Nəşriyyatlar pulsuz kitab verirlər və onları satıb pulunu Umud üçün toplayırıq. Dünən 137 manat yığılıb, bu gün stendimizi ziyarət edənlər çox olduğundan yığılan məbləğ də çoxdur".

Qeyd edək ki, "Pasaj-1901" sərgi salonunda festivala giriş sərbəstdir. İlk iki gündə buraya yüzlərlə kitabsevər gəlib və minlərlə kitab alınıb. Qarşıdakı günlərdə festival çərçivəsində keçiriləcək tədbirlərin də geniş auditoriyanı əhatə edəcəyi şübhəsizdir.

Sərgi yanvarın 15-nə kimi davam edəcək.

**Rizvan FİKRƏTOĞLU,**
**Elşən AĞALAR (foto),**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2023.- 13 yanvar.- S.7.